# Braziliyada Azərbaycan sənədli və bədii filmlərindən ibarət kino həftəsi keçirilib

Aprelin 6-11-də Brazilia şəhərində yerləşən Braziliya Bankının Mədəniyyət Mərkəzində Heydər Əliyev Fondunun və Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, ölkəmizin Braziliyadakı səfirliyinin təşkilatçılığı ilə portuqal dilinə tərcümə olunmuş Azərbaycan sənədli və bədii filmlərindən ibarət kino həftəsi keçirilib.

Səfirlikdən bildiriblər ki, kino həftəsi çərçivəsində "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu" sənədli filmi, həmçinin "Arşın mal alan", "Nabat", "Çölçü", "Təhminə" və "Axınla aşağı" bədii filmləri nümayiş etdirilib.

Braziliya Bankının Mədəniyyət Mərkəzi tərəfindən tədbirin əsas filmi kimi Heydər Əliyev Fondunun dəstəyi ilə istehsal edilmiş, Arzu Əliyevanın layihə rəhbəri olduğu "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu" sənədli filmi seçilib.

Aprelin 7-də paytaxt Braziliada Braziliya Bankının Mədəniyyət Mərkəzində həmin sənədli filmin təqdimatı keçirilib.

Tədbirin əvvəlində Azərbaycanın Braziliyadakı səfiri



Elnur Sultanov çıxış edərək Arzu Əliyevanın layihə rəhbəri olduğu "Hədəf Bakıdır. Hitler neft uğrunda döyüşü necə uduzdu" sənədli filminin faşizm üzərində Qələbənin 70 illik yubileyinə həsr olunduğunu və filmin çəkilməsində məqsədin Azərbaycan xalqının faşizm üzərində Qələbədə tarixi rolunu, Bakı neftinin strateji əhəmiyyətini bütün dünyaya göstərmək, eyni zamanda, bu tarixi həqiqəti indiki və gələcək nəsillərə çatdırmaqdan ibarət olduğunu qeyd edib. O, filmin təqdim edilməsində göstərdiyi dəstəyə görə Heydər Əliyev Fonduna dərin təşəkkürünü ifadə edib.

Səfir E.Sultanov çəkilişləri 14 ay davam edən bu sənədli filmin üzərində iş zamanı bir sıra ölkələrin arxivlərində çoxsaylı sənədlər araşdırıldığını və filmdə İkinci Dünya müharibəsinin tarixinə tamamilə yeni baxış bucağından - neft uğrunda savaş prizmasından baxıldığını vurğulayıb.

Filmin aktual xarakter daşıdığını bildirən səfir dünyanın müxtəlif yerlərində zorakılığın, ekstremizmin, qaçqın böhranı və digər neqativ halların davam etdiyini söyləyərək ölkəmizin 20 faiz torpaqlarının Ermənistan tərəfindən 20 ildən artıqdır işğal olunduğunu qonaqların diqqətinə çatdırıb. O, həmçinin son vaxtlar Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində Ermənistan tərəfindən atəşkəsin pozulması və törədilən təxribatlar barədə məlumat verib.

Çıxışın sonunda səfir bu filmin tarixdən ibrət dərsləri çıxarılmasının əhəmiyyəti baxımından, həmçinin sülh, ədalət və təhlükəsizliyin bərqərar olunması və beynəlxalq hüquqa riayət edilməsi üçün güclü ismarıc göndərdiyini vurğulayıb.

Film qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

Tədbirdə yerli ictimaiyyətin və Braziliyada akkreditə olunan diplomatik korpusun nümayəndələri, eləcə də Azərbaycan səfirliyinin əməkdaşları iştirak ediblər.

***AZƏRTAC***